*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

*ISSN: 2148-2292*
*10 (4) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 12.06.2023*
*Kabul tarihi |Accepted: 30.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*

**Gülnarə Şirəliyeva**

*https://orcid.org/0009-0007-1760-6710*
*Phd, Azerbaijan National Academy of Sciences. Institute of History named after A. Bakihanov, Azerbaijan, natavan.cafarova1957@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Şirəliyeva, G. (2023). İslam Əməkdaşliq Təşkilatinin Fəaliyyətində Heydər Əliyevin Rolu. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (4), 1057-1066.

# İslam Əməkdaşliq Təşkilatinin Fəaliyyətində Heydər Əliyevin Rolu

***Xülasə***

*Müstəqil Azərbaycana rəhbərlik dövrü çətin siyasi-iqtisadi mərhələyə təsadüf etsə də, milli lider Heydər Əliyev yeni dövlətin qurucülüq konsepsiyasını, daxili və xarici siyasətini xalqın mentalitetinə uyğun olaraq düzgün müəyyən edə bilmişdir. Öz ölkəsini qabaqcıl islam mərkəzi kimi görmək istəyən Heydər Əliyev Azərbaycanın Şərqlə və islam ölkələri ilə əlaqələrinə böyük əhəmiyyət verirdi. Ümumilli lider islam dininin müxtəlif aspektləri ilə bağlı ölkə problemlərini həll edərkən və dünya ölkələri ilə qarşılıqlı əlaqələrin istiqamətlərini müəyyən edərkən məhz bu mənbədən çıxış edirdi. Heydər Əliyevin İƏT çərçivəsində fəaliyyəti və Azərbaycan dövlətinin lideri olaraq müstəqil xarici siyasət kursu islamın Azərbaycan xalqının milli mədəniyyətinin bir parşası olduğunun təsdiqidir. Heydər Əliyevin islam dəyərlərinin qorunaraq inkişaf etdirilməsi siyasəti bü gün də uğurla davam etdirilir.*

***Açar sözlər:*** *İslam Əməkdaşlıq Təşkilatı, Heydər Əliyev, müsəlman ölkələri, Azərbaycanın xarici siyasəti, islam həmrəyliyi*

# In the Activities of the Organization of Islamic Cooperation the role of Heydar Aliyev

***Abstract***

*Despite the fact that the period of leadership of independent Azerbaijan coincided with a difficult political and economic stage, national leader Heydar Aliyev managed to correctly define the concept of construction, internal and foreign policy of the new state in accordance with the mentality of the people.*

*Heydar Aliyev, wishing to see his country as an advanced Islamic center, attached great importance to Azerbaijan's relations with the East and Islamic countries. It was from this source that the national leader proceeded when solving the country's problems on various aspects of the Islamic religion and determining the directions of interaction with the countries of the world. Heydar Aliyev's activities within the framework of the OIC and the course towards an independent foreign policy as the leader of the Azerbaijani state are proof that Islam is part of the national culture of the Azerbaijani people. Heydar Aliyev's policy of preserving and developing Islamic values continues successfully today.*

***Keywords:*** *Organization of Islamic Cooperation, Heydar Aliyev, Muslim countries, foreign policy of Azerbaijan, Islamic Solidarity*

## *Giriş*

Azərbaycanın əlverişli coğrafi mövqeyi Qərb və Şərq mədəniyyətinin nailiyyətlərini özündə əks etdirmək imkanı verir. İki qitə arasında yerləşən bu ölkədə Şərq və Qərb sivilizasiyasının dialoqu, inteqrasiyası üçün geniş imkanlar mövcuddur. Təqbiq edilən qlobal strateji kursun müsbət nəticəsini siyasi sahədən başlayaraq bütün sahələrdə, həmçinin mədəniyyət sahəsində və xalqın həyat tərzində müşahidə etmək mümkündür. Azərbaycan Şərq və Qərb ölkələri ilə sıx əlaqələr yaradaraq müsəlman dünyasında İslam Əməkdaşlıq Təşkilatının, Qərbdə isə Avropa Şurasının üzvü kimi fəallıq göstərir. İnkar etmək olmaz ki, bütün dini, mədəni-psixoloji, sosial-siyasi cəhdlərin bünövrəsini tarixi şərtlər təşkil edir, lakin eyni zamanda, milli lider Heydər Əliyevin müdrik fəaliyyətində əks olunan dövlət quruculuğunun rolu və əhəmiyyətini də xüsusi olaraq qeyd etməliyik. Qeyri-adi liderlik qabiliyyətlərinə malik Heydər Əliyev sovet rejimi şəraitində, ən yüksək dövlət vəzifələrində çalışdığı zamanlarda da müsəlman xalqının nümayəndəsi olaraq islam dininin zənginliyini dünyagörüşündə əks etdirmişdir. Vaxtilə dünyanın iki nəhəng dövlətlərindən birinin – SSRİ-nin dövlət strukturlarında yüksək mövqelər tutan Heydər Əliyev, görkəmli dövlət xadimi kimi xarici ölkələrin mətbuat səhifələridə də müzakirə olunurdu. Belə ki, 1984-cü ildə Fransanın "Fiqaro" qəzetində Sovet İttifaqında siyasi və iqtisadi böhranın səbəblərini araşdıran müəllif Heydər Əliyev şəxsiyyətinə diqqət yetirərək qeyd edirdi ki, onun dövlət rəhbərliyinə namizədliyi müsəlman ölkəsi Azərbaycandan olduğu üçün rədd ediləcək. Milli lider Azərbaycanı islam dünyasının ayrılmaz hissəsi hesab edir, islam sivilizasiyasının sülh və ədalət prinsiplərini simpozium və konfranslardakı çıxışlarında əsas tuturdu.

*Əsas mətn* Ölkəsini qabaqcıl islam mərkəzi kimi görmək istəyən Heydər Əliyev Azərbaycanın Şərqlə və islam ölkələri ilə əlaqələrinə böyük əhəmiyyət verirdi. Hakimiyyətinin ilk illərində milli lider bu əlaqələrin daha da dərinləşməsi üçün möhkəm bünövrələrin qurulması

tədbirləri görmüşdür. İslam dünyasının böyük hörmət etdiyi şəxsiyyət Heydər Əliyevin düzgün siyasi kursunun nəticəsi olaraq Azərbaycan Respublikası bir çox beynəlxalq təşkilatların, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən birinə çevrildi. Heydər Əliyevin Təşkilatdakı fəaliyyətində Ermənistan-Azərbaycan münaqişəsinə prinsipial mövqeyi xüsusilə diqqəti cəlb edir. İƏT-in zirvə görüşlərində, həmçinin bütün beynəlxalq forumlardakı çıxışlarında ölkə başçısı münaqişəyə ikili standartlar siyasəti nümayiş etdirən qərb ölkələrini tənqid edirdi. Ermənistanın Azərbaycana təcavüzündən, bir milliondan çox insanın doğma torpaqlarından qovulmasından bəhs edərkən, milli lider insan haqqları və demokratiya çağrışları irəli sürən qərb siyasətçilərinin qarşısına əsaslandırımış faktlar qoyurdu. Milli liderin məntiqi iddialarına qarşısında təcavüzkar siyasətə, xalqımızın faciəsinə göz yuman, "haqq tərəfdarları" söz tapa bilmirdilər.

İslamın dərin psixoloji təsirini bilən Heydər Əliyev islam dininin tərbiyəvi, səfərbəredici funksiyalarına xüsusi önəm verir, islam elminin müxtəlif aspektlərindən məlumatlı olaraq, dünyada baş verən hadisələri müvəffəqiyyətlə təhlil edirdi. İslam və müasirlik anlayışı arasında ziddiyət görməyən lider, qeyd edirdi ki, dünyada bərabərlik, insan haqqlarının bərqərar olması, ədalətin zəfər çalması üçün islam dəyərlərinə müraciət zəruruidir (Abdulla, 2007, s. 8). 1993-cü ilin sentyabrında Təzə pir məscidini ziyarət edən Heydər Əliyev müsəlmanları Mövlud bayramı münasibətilə təbrik edərək islam dəyərlərinin azərbaycan xalqının həyatındakı əhəmiyyətini vurğulamış, Sovetlər İttifaqının dağılmasından sonra müstəqil ölkənin milli-mənəvi dirçəliş dövrünün başlanıldığını ifadə etmişdir. 1994-cü ildə Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin müsəlman dünyasının müqəddəs şəhərlərini– Məkkə və Mədinəni ziyarət etməsi bu görkəmli şəxsiyyətə marağın artmasına səbəb oldu.

Milli lider İƏT –nın fəaliyyətində yaxından iştirak edərək, Təşkilatın rəhbər şəxsləri ilə görüşlər keçirərək Ermənistan-Azərbaycanın münaqişəsinin səbəb və nəticələrini bəyan edir, Azərbaycanın haqq işinə münasibətdə Təşkilatın ciddi dəstəyinə nail olurdu. 1994-cü ildən başlayaraq Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İƏT-nin Baş katibliyi yanında Daimi nümayəndə səlahiyyətləri verildi. Bu zamandan Ər-Riad vasitəçiliyi ilə Ciddə şəhərində (Səudiyyə Ərəbistanı) yerləşən İƏT -ın Baş katiblik iqamətgahı, Təşkilatın müxtəlif strukturları, o cümlədən İslam İnkişaf bankı arasında məhsuldar iş dövrü başladı (Məmmədli, 2019, s. 12).

Azərbaycanın İƏT ilə münasibətləri 1994 –cü ilin noyabr ayında Heydər Əliyevın Təşkilatın Ali katibi doktor Həmid al-Habid ilə Bakıdakı görüşündən sonra daha da genişlənməyə başladı. Həmin ilin dekabr ayında Heydər Əliyev İƏT-nın Mərakeşdə

(Kasablanka şəhərində) keçirilən VII zirvə görüşünün iştirakçısı olur. Görüşdə çıxış edən Azərbaycan Respublikası prezidenti erməni vandalları tərəfindən Azərbaycan ərazilərində törədilən cinayətlər barədə məlumatlar verdi, qədim mədiyyət abidələrimizin, tarixi tikililərin, məscidlərin, quranın surətlərinin məhv edilərək yandırılmasını iştirakçıların diqqətinə çatdırdı. Dövlət başçısı qeyd etdi ki, bu cinayətlər əslində qədim islam sivilizasiyasının izlərinin silinməsi deməkdir. İslam Əməkdaşlıq Təşkilatının VII zirvə görüşünün son toplantı günündə Heydər Əliyevin Asiya dövlətləri adından təbrik nitqi ilə çıxış etməsi milli liderimizə böyük hörmətin əlaməti idi. Sözügüdən sammitdə Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycan Respublikasına iqtisadi yardım barədə qətnamə qəbul olundu [Məmmədli, 2017, s.126; Gasanov, 2007, s.649]. Sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycan əhalisinə qarşı cinayətləri qətiyyətlə pislənir, Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal, şərtsiz çıxarılması barədə BMT qətnamələrinin (822,853,874,884) yerinə yetirilməsi tələb olunurdu. Azərbaycan Respublikası dövlət rəhbərliyinin və İƏT rəhbərliyinin birgə səyləri nəticəsində BMT ilə müzakirə mövzularına mütəmadi olaraq Ermənistanın Azərbaycana təcavüzü məsələsinin daxil edilməsi gələcək qətnamələrin qəbul edilməsi istiqamətində əhəmiyyətli idi və bu, beynəlxalq ictimaiyyətin doğru münasibətinin formalaşmasına da müsbət təsir göstərdi (Şirəliyeva, 2022, s. 69).

İƏT qarşısında duran başlıca vəzifələr sırasında milli liderimiz incə diplomatiya aparılmasında, qlobal genişmiqyaslı məsələlərin həllində, ümummüsəlman mədəniyyətinin mühafizəsində müsəlman ölkələrinin həmrəylik və birliyinə nail olunmasını qeyd edirdi. Heydər Əliyev Türkiyə Pakistan, və İranla münasibətlərin sıxlığı ilə yanaşı Misir, Səudiyyə Ərəbistanı, Livan, Birləşmiş Ərəb Əmirlikləri, Küveytlə də əlaqələrin möhkəmləndirilməsinə önəm veririd.

Kasablankada Küveyt Əmiri Şeyx Cabir Əhməd əs-Sabahla Heydər Əliyevin təkbətək söhbəti uğurlu nəticələr verdi və 1995-ci il 28 may tarixində Azərbaycan Respublikasının Milli Məclisində azərbaycan-küveyt dostluq qrupu yaradıldı. Elə həmin ilin 20-22 sentyabr tarixlərində Küveyt Məclisinin üzvləri sədr müavini Saleh Yusif əl-Fadal-lahın rəhbərliyi ilə Bakıda oldu. Bu ziyarət Azərbaycan-Küveyt əlaqələrinin dərinləşməsinə təkan verdi. Sonrakı mərhələdə Azərbaycan Respublikası ilə Küveyt arasında siyasi-diplomatik münasibətlər genişləndi, səfirliklər fəaliyyətə başladı ki, bu da siyasi, iqtisadi və mədəni əlaqələrin, iki müsəlman ölkəsi arasında dostluq münasibətlərinin təzahürü idi. Islam Əməkdaşlıq Təşkilatının üzvlərindən biri, Afrika qitəsinin inkişaf etmiş ölkələrindən sayılan Mərakeşlə əlaqələr də Heydər Əliyev xarici kursunda əhəmiyyətli yer tuturdu. 1994-cü ildə ölkələrimiz arasında xarici

işlər nazirləri səviyyəsində əlaqələr barədə sənəd imzalandı ki, bu da daha geniş əlaqələrə keçidin başlanğıcı hesab edilə bilər.

Ulu öndərin düzgün siyasi kursu, İƏT çərçivəsində fəaliyyəti müsəlman ölkələri ilə bir sıra uğurlu əməkdaşlığın təməlini qoydu, həmçinin bir çox inkişaf etmiş Avropa ölkələri ilə əhəmiyyətli müqavilələrin imzalanmasına vəsilə oldu. 1995-ci ilin mart ayında İslamabadda keçirilən zirvə görüşündə tranzit ticarət, İqtisadi əməkdaşlıq və inkişaf Təşkilatı ölkələri iş adamlarına sadələşdirilmiş qaydada viza verilməsi, İƏİT ölkələrinin gəmiqayırma şirkətlərinin təsis edilməsi və nizamnaməsi, İƏİT ölkələrinin hava şirkətlərinin təsis edilməsi və nizamnaməsi barədə müqavilələr imzalanmasında Azərbaycan da iştirak etdi*.

1995-ci ilin noyabr ayında Misir Ərəb Respublikasının nümayəndə heyəti Misir dövlət neft şirkətinin sədri F.Əbdüləziz başda olmaqla Bakıda rəsmi səfərdə oldu və bu səfər zamanı neft emalı avadanlıqlarının Azərbaycandan Misirə ixracı barədə müqavilə imzalandı. Bir neçə il sonra (2002-ci ilin oktyabrın 3-də) Heydər Əliyev Misir və Azərbaycan arasında iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə hökümətlərarası birgə komissiyanın tərkibi barədə sərəncam imzaladı (Şirəliyeva, 2022, s. 57).

Heydər Əliyevin İƏT çərçivəsində bacarıqlı siyasi-diplomatik səyləri nəticəsində Azərbaycanın müsəlman ölkələri ilə münasibətləri yeni mərhələyə qədəm qoydu, İslam İnkişaf Bankı (İİB) ilə əlaqələr yaradıldı. 1995-ci ilin sentyabr ayında İİB Bakıda Beynəlxalq investisiya konfransı təşkil etdi. Bu isə Azərbaycan Respublikası ilə İİB arasında əməkdaşlığın dərinləşməsi anlamına gəlirdi.

Sovetlər Brliyinin dağılmasından dərhal sonra imperiya zəncirlərindən xilas olmuş müsəlman ölkələrinin islam dünyasının digər ölkələri ilə əlaqələrinin bərpası və inkişafı zərurəti yaranmışdı. Bu zaman SSRİ-nin keçmiş respublikalarında Asiya Müsəlmanları Komitəsinin şöbələri açılmağa başladı ki, bu da Beynəlxalq İslam Xeyriyyə Təşkilatının bir parçası idi. Komitənin Azərbaycan şöbəsi 1995-ci ildə işə başlayaraq məcburi köçkünlərə, əhalinin aztəminatlı təbəqələrinə, kimsəsizlərə yardım edir, respublika infrastrukturlarının dirçəldilməsi istiqamətində müxtəlif layihələrə dəstək tədbirləri həyata keçirirdi (Abdulla, 2007, s. 12).

Sovet ideologiyasının iflasa uğramasından sonra Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə dönməsi təbii proses olaraq baş verirdi, burada da islam dini əsas rol oynayırdı. Ümumilli lider islam dininin müxtəlif aspektləri ilə bağlı ölkə problemlərini həll edərkən və

*Azərbaycan Respublikası xarici işlər naziri Həsən Həsənov tərəfindən təmsil olunurdu.

dünya ölkələri ilə qarşılıqlı əlaqələrin istiqamətlərini müəyyən edərkən məhz bu mənbədən çıxış edirdi. Bununla Heydər Əliyev kursu bir neçə amili ön plana çəkirdi:

1. İslam dini azərbaycan xalqının dini eyiqadı olaraq onun mədəniyyətinin bir hissəsidir;
2. Din milli və mənəvi mədəniyyətin mühüm amili kimi çıxış edir;
3. Din və dövlət arasında münasibətlərin düzgün nizamlanması üçün zərurət mövcuddur;
4. Müxtəlif dinlər və xalqlar arasında qarşılıqlı anlaşma və dialoq yeni beynəlxalq reallıqların əsas şərtidir

İƏT üzvü və türkdilli ölkələrlə münasibətlərə xüsusui önəm verən Heydər Əliyevin hakiməyyəti illərində Qazaxıstan və Qırğızıstanla əlaqələr də qarşılıqlı rəsmi səfərlər, müxtəlif əməkdaşlıq müqavilələri ilə müşaiyət olunub [İsmailova, 2010, s. 199]. 1995-ci ilin avqustunda türkdilli dövlətlərin Qırğızıstanda keçirilən III sammitində milli liderimiz də iştirak etmişdir. 1996-cı ilin noyabr ayında bu iki ölkə arasında əməkdaşlıq haqqında müqavilənin imzalanması hər iki ölkənin münasibətləri möhkəmləndirməkdə maraqlı olduğunun xəbərçisi idi. Bu görüşün davamı olaraq növbəti ilin aprel ayında Ə. Akayevin Azərbaycana rəsmi səfəri müxtəlif sahələr üzrə 14 sazişin imzalanması ilə başa çatdı (Kurbanova, 2010, s. 72).

1996-cı ilin may ayında Heydər Əliyev İƏT–nın Aşğabadda keçirilən IV sammitinə qatılaraq 1998-2007-ci illər üçün nəqliyyat və kommunikasiyanın inkişafı proqramının qəbul edilməsində iştirak etdi. 1997-ci il 9-11 dekabr tarixlərində İƏT ölkələrinin İran İslam Respublikasında (Tehan şəhərində) keçirilən VIII zirvə görüşündə bir sıra islam ölkələrinin başçıları ilə görüşən Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığın möhkəmləndirilməsinin zəruriliyini diqqətə çatdırdı. Tehran səfəri çərçivəsində Azərbaycan Prezidenti İƏT–nın Baş katibi İzzəddin Laraki ilə görüşdü. Sammitdə çıxışı zamanı 1993-1996-cı illər ərzində Rusiyanın Ermənistana bir milyon məbləğində qanunsuz silah və hərbi texnika göndərməsini vurğulayan ölkə rəhbəri, diqqəti Rusiya ilə Ermənistan arasında 1997-ci ilin 29 avqustda imzalanan hərbi əməkdaşlıq müqaviləsinə yönəltdi (Məmmədli**,** 2017, s. 127). Tehran sammiti çərçivəsində Heydər Əliyevin Fələstin lideri Yasir Ərəfatla görüşü islam dünyasının iki görkəmli liderinin bioqrafiyasında mühüm xatirə hesab oluna bilər. Görüş zamanı Yasir Ərəfat Sovet İttifaqında rəhbər vəzifədə çalışan zaman Heydər Əliyevin ona dəstəyini xatırlayaraq dərin təşəkkürünü bildirmişdir (Bakinskiy raboçiy, 1997).

Ermənistan qüvvələrinin Azərbaycan ərazilərində özbaşınalığı, BMT qətnamələrinin yerinə yetirlməməsinə diqqət hər zaman H.Əliyev xarici siyasi kursunun ana xətti olmuş, İƏT, eləcə də bütün beynəlxalq təşkilatların müzakirə obyektinə çevrilməsi istiqamətində ardıcıl

tədbirlər həyata keçirilmişdir. Bu səbəbdən də qonşu respublikanın ölkəmizə qarşı hərbi təcavüzünün dayandırılması, düşmən qüvvələrin Azərbaycan topraqlarından şərtsiz çıxarılması 1996-cı ildə İndoneziyanın Cakarta şəhərində İƏT-in xarici işlər nazirləri səviyyəsində toplantısında, həmçinin 1997-ci ildə İranın Tehran şəhərindəki görüşündə də müzakirə olunaraq müvafiq qətnamələr qəbul edilmişdir. Heydər Əliyev İƏT-nın Ermənistanın Azərbaycana təcavüzünü qınamasına, maddi və mənəvi dəstəyinə yüksək qiymət verirdi. Demək olar ki, bu, Azərbaycanın maraqlarını sonadək, birmənalı şəkildə dəstəkləyən yeganə Təşkilat idi.

1998-ci ilin dekabrında "Qafqazda islam sivilizasiyası" beynəlxalq konfransında çıxış edən Heydər Əliyev sovet ideoloji siyasətinin dinə qarşı görünən və görünməyən aspektlərindən bəhs etdi. Bu siyasətin məhvini məntiqəuyğun adlandıran milli lider, dini hisslərin insanların mənəviyyatında dərin yer tutmasını vurğuladı (Abdulla, 2007, s. 34).

H.Əliyev Mərkəzi Asiyanın islam ölkələri ilə münasibətləri daim diqqət mərkəzində saxlayır, birgə tədbirlərin təşkilində fəallıq göstərirdi. TRASEKA layihəsinin həyata keçirilmə dönəmində Bakıda baş tutan konfransda (sentyabr 1998) İƏT –nın üzvləri – Türkiyə, Özbəkistan və Qırğızıstan da təmsil olunurdu (Kurbanova, 2010, s. 35).

Azərbaycanın xarici siyasət məsələsində prezident Heydər Əliyev qlobal proseslərə inteqrsiya edilməsinə xüsusi diqqət yetirir, Türkiyə ilə yanaşı Rusiya və İranla da münasibətləri nizamlamağa, Respblika ətrafında əlverişli siyasi iqlim yaratmağa çalışırdı. O, Azərbaycan neftinin ixracında Türkiyəni əsas marşrut hesab edir, türkiyə-azərbaycan münasibətlərinin daha da genişləndirilməsi istiqamətində çalışırdı. Bakı-Ceyhan əsas ixrac boru kəməri üzrə danışıqlarda Ankara deklarasiyası önəmli rol oynadı. 26 oktyabr 1998-ci il tarixli bu deklarasiyanı İƏT üzvləri olan Türkiyə, Azərbaycan, Qazaxstanla yanaşı Gürcüstan da imzaladı (Sayadov, 1998, s. 15). Danışıqlar 18 noyabr 1999-cu ildə ATƏT-in İstanbul sammitinin gedişi zamanı yekunlaşdı, Azərbaycan, Türkiyə, Gürcüstan prezidentləri xammal neftin Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsi ilə nəql edilməsi haqqında saziş imzaladılar. Heydər Əliyevin Ankaraya strateji əhəmiyyət verməsini Türkiyəyə üç rəsmi və iki qeyri-rəsmi səfərləri, həmçinin Azərbaycanla Türkiyə arasında on beş işçi görüş təsdiq edir (Şirəliyeva. 2021, s. 54).

Milli liderimizin düzgün siyasi kursu nəticəsində 2000-ci ildə Doxada (Qatarda) və növbəti zirvə görüşlərində də Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrinin çıxarılması tələbləri səsləndirilmiş, bu barədə BMT qətnamələrinin (822,853,874,884) yerinə yetirilməsi sənədlərdə əksini tapmışdır (Şirəliyeva, 2022, s. 71). Beynəlxalq səhnədə hadisələrə təsir etmək, milli maraqları önə çəkərək mübahisə və münaqişələrin həllində iştirak etmək, ölkələrarası çoxtərəfli faydalı əlaqələrin nizamlanmasına da şərait yaradır. Respublikamızla

bağlı bütün qətnamə layihələrinin təqdim etdiyimiz şəkildə, mübahisəsiz, heç bir düzəliş və əlavə edilmədən qəbul olunması bir daha təsdiq edir ki, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dəstəkləyir (Azərbaycan beynəlxalq, 2013, s. 27).

İƏT çərçivəsində Azərbaycan Respublikası ilə Özbəkisatan Respublikası arasında tarixi əlaqələr Sovetlər Birliyinin iflasından sonra yeni mərhələyə qədəm qoydu. Ölkə prezidentləri arasında qarşılıqlı rəsmi səfərlər ikitərəfli əməkdaşlıq sahəsində 10-larla sənədin imzalanması ilə nəticələndi (Sovremennıye, 2000, s. 143). Azərbaycan və Özbəkistan regional və beynəlxalq siyasətin bir çox aktual məsələləri üzrə bənzər mövqe nümayiş etdirirlər. Bu iki ölkə arasında münasibətləri indiyədək nizamlayan sənədlər içərisində Daşkənddə imzalanan "dostluq və əməkdaşlıq haqqında" 1996-cı il 27 may tarixli, həmçinin "iqtisadi əməkdaşlıq haqqında" 2001-ci il 18 aprel tarixli müqavilələr mühüm yer tutur. Mədəni-humanitar sahədə əməkdaşlığın inkişafında Azərbaycandakı özbək və Özbəkistandakı azərbaycan diasporasının fəaliyyəti son dərəcə önəmlidir (Şirəliyeva, 2021, s. 64).

Heydər Əliyev İƏT üzvü ölkələrindən Əfqanıstanla da çox sahələr üzrə əməkdaşlığa önəm vermiş, müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyət protokolları imzalanmışdır. Əfqanıstan İslam Respublikasının prezidenti Həmid Karzay və Heydər Əliyev arasında İƏT-in iqtisdi məsələlərə həsr olunan İstanbul zirvə görüşü zamanı (2001) geniş müzakirələr ölkələr arasında isti münasibətlərin davamının bünövrəsini qoydu. 2000-ci il aprelin 7-də N.Nazarbayevin Azərbaycana rəsmi səfəri zamanı iki ölkə prezidentinin görüşü iqtisadi və siyasi münasibətlərin inkişafını nəzərdə tutan bir sıra sənədlərin imzalanması ilə nəticələndi. Ümumi tarixi köklərə, yaxın mədəniyyətə malik bu ölkələr arasında yaradılan konstryktiv siyasi dialoq bu günə qədər davam etdirilir (Rezolyusiya,1988, s. 25).

2001-ci ilin 11 sentyabrında ABŞ-da terror aktlarından sonra islam dini etiqadçılarına hücumların artdığı, müsəlmanların terror mövzuları obyektinə çevrildiyi bir zamanda Azərbaycan prezidenti elmi və dini əsaslarla öz mövqeyini bildirərək, terrorizmin islamla heç bir əlaqəsinin olmadığını, islam dininin və Quranın zorakılığı, təcavüzü rədd etdiyini bildirdi. Müsəlmanlara qarşı ikili standartların tətbiqini bir daha qınayan lider, islam dünyasının bir parçası olan Azərbaycana qarşı iddiaları da rədd etdi (Abdulla, 2007, s. 48).

**Nəticə**

Heydər Əliyevin çoxtərəfli siyasi, ictimai və diplomatik fəaliyyəti Küveyt dövlətinin islam və vəqf işləri üzrə nazirinin birinci müavini, Asiya Müsəlmanları Komitəsinin sədri doktor Adel əl-Fəlah tərəfindən yüksək qiymətləndirilmişdir. İslam dünyasının bir sıra problemlərinə həsr olunmuş konfrans və simpoziumların bilavsitə iştirakçısı doktor Adel əl-

Fəlah milli liderin büynəlxalq tədbirlərdəki çıxışlarını Quran ayətləri ilə uyğun adlandıraraq, xatirələrində Heydər Əliyevin nadir, qeyri-adi keyfiyyətlərə malik olduğunu qeyd edirdi. Müstəqil Azərbaycana rəhbərlik dövrü çətin siyasi-iqtisadi mərhələyə təsadüf etsə də milli lider Heydər Əliyev yeni dövlətin qurucülüq konsepsiyasını, daxili və xarici siyasətini xalqın mentalitetinə uyğun olaraq düzgün müəyyən edə bilmişdir. Tunis sammitindəki çıxışında ulu öndər planetin xeyli hissəsini təşkil edən və əhalisi bir milliarddan çox müsəlman ölkələrinin problemlərinə diqqəti cəlb edərək, islam ölkələrinin inkişafına maneələrin aradan qaldırılmasını tarixi zərurət olaraq göstərmiş, ölkələr arasında qarşılıqlı yardım, islam dünyasında həmrəyliyə nail olmanı, parçalanma və təcridolunmaya imkan verməməyi ön plana çəkmişdir. Belə ki, bu ölkələrin ümumi potensialı İƏT-nin beynəlxalq proseslərə qoşulmasına, islam ölkələrinə məxsus spesifik problerin həllinə imkan verir.

Heydər Əliyev müsəlman ölkələri ilə əlaqələri iki mövqedən görürdü: birincisi, Azərbaycan Respublikası ilə müsəlman ölkələri arasında siyasi-iqtisadi, mədəni-humanitar əlaqələrin genişləndirilməsi; ikincisi isə müsəlman ölkələri arasında birlik və həmrəyliyin möhkəmlənməsi. Azərbaycan lideri müsəlmanların maraqlarının müdafiəsində ikitərəfli və regional əməkdaşlığın rolunu, eləcə də beynəlxalq səhnədə vahid mövqedən çıxış etmələrini zəruri hesab edirdi. Heydər Əliyevin İƏT çərçivəsində fəaliyyəti və Azərbaycan dövlətinin lideri olaraq müstəqil xarici siyasət kursu islamı Azərbaican xalqının milli mədəniyyətinin bir parşası olduğunun təsdiqidir. Heydər Əliyevin islam dəyərlərinin qorunaraq inkişaf etdirilməsi siyasəti bü gün də uğurla davam etdirilir.

## Ədəbiyyat

*Azərbaycan beynəlxalq aləmdə.* (2013). Mürtəcim.

Adel Abdulla al-Falah. (2007). *Geydar Aliyev i nasionalno-duhovnıye sennosti*. Qismetç (1997, 16 dekabr). *Bakinskiy raboşiy.*

Gasanov, A. (2007). *Sovremennıye mejdunarodnıye otnosheniya i vneshnyaya politika Azerbaydjana.* Şərq-Qərb.

İsmailova, S. (2010). *Nezavisimıy Azerbaydjan i vzaimootnosheniya s tyurkskimi qosudarstvam. Tarix və onun problemləri, 3,* 197-204.

Kurbanova, S. (2010). *Geydar Aliyev i vneshepolitiçeskiy kurs Azerbaydjanskoy Respubliki*. Baku.

Məmmədli, Ş. R. (2019). *Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi. Tarix, insan və cəmiyyət, ADPU, 2* (25), 126-133.

Rezolyusiya 42 sessii Generalnoy assamblei OON. (1988). *Mejdunarodnaya jizn,* 3, 23-29.

Sayadov, S. (1998). *Azerbaycan. Mejdunarodnıye svyzi i vzaimootnosheniya*. Azerneshr.

*Sovremennıye mejdunarodnıye otnosheniya*. (2000). M., ROSSPEN.

Şirəliyeva, G. Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı ölkələri ilə əlaqələri tarixindən (1993-2003). (2021). *Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnal, 2,* 57-68.

Şirəliyeva, G. (2022). Azərbaycan respublikasının ərazi bütövlüyünün bərpası islam əməkdaşlıq təşkilatının gündəliyində (1991-2010-cu illər). *ADPU-nun Pedaqoji Universitetin Xəbərləri, 4,* 68-74.